# Adamın özünü tapmağı zülüm, Hələ də özümü gəzirəm, Allah



Fəxrəddin Teyyub

## Hələ də özümü gəzirəm Allah

*Ömür xərcləmişəm, dəstgah məndədir,
Dərdimi yonuram, dəzgah məndədir.
Məndən qaçan varsa, günah məndədir,
Eləcə özümdən küsürəm, Allah.*

*Qəlbim bir az yuxa, bir az da həlim,
Yox deyə bilmədim, dərd oldu bəlim.
Mənə qulaq asmır səxavət əlim,
Özüm öz ruzumu kəsirəm, Allah.*

*Özgələr varımı bölə bilirlər.
Varım başdan aşır, belə bilirlər.
Qayğım bir okean, elə bilirlər,
Sevinc ümmanında üzürəm, Allah.*

*Gözümün nurunu ellərə verdim,
Ömrümü, günümü yellərə verdim.
Vaxtımı çağlayan sellərə verdim,
İnd bir an üçün əsirəm, Allah.*

*Sevənin eşqindən qopmağı zülüm,
Dağ yarıb, qayanı çapmağı zülüm.
Adamın özünü tapmağı zülüm,
Hələ də özümü gəzirəm, Allah.*

## Qisasın alınır hər gün qızcığaz

Gəncə faciəsində hər iki valideynini itirmiş bir qızcığaza.

*Qalmadı üstündə daha əsənin,
Bir evin gur yanan ocağı söndü.
Elə bil qar yağdı baxtına sənin,
Atan da, anan da nağıla döndü.*

*Kim səni yuxudan oyadar səhər,
Kim çəkər başına sığal, balaca.
Yadların əlinə gözün dikilər,
Sənə verən olmaz qoğal, balaca.*

*Baharda qəfildən solan çiçəksən,
Tökülər üstünə kədər var kimi.
Ürəkdən sevinə bilməyəcəksən,
Atalı, analı uşaqlar kimi.*

*Əzilir ilan tək başı düşmənin,
Susmur gecə-gündüz nə dil, nə boğaz.
Qalmadı daş üstə daşı düşmənin,
Qisasın alınır hər gün qızcığaz.*

*Ümidin gözüylə boylan sabaha,
Ordumuz bir az da şanlı olacaq.
Ömrün səksəkədə keçəcək daha,
Gördüyün yuxular qanlı olacaq.*

*Bu zülmü nə göy, nə yer də götürməz,
Darıxma, işini zaman görəcək.
Sənin taleyinə güllə atan kəs,
Tanrı dərgahında cavab verəcək.*

## Nağılını danışıram özgəyə

*Uçub getdin göyün yeddi qatına,
Su səpildi ocağıma, külümə.
Girəmmədim tabutunun altına,
Mən nə deyim bu vədəsiz ölümə.*

*Axı ömür ağacından nə dərdin?
Baxan kimdi daha sınan güzgüyə.
Şirin, şəkər nağılları sevərdin,
Nağılını danışıram özgəyə.*

*Üzü bozdu, niyə, nədən yanvarın?
Coşub daşan dənizləri apardı.
Ədavəti varmış mənnən yanvarın,
Doğmaları, əzizləri apardı.*

*Üzüm gülməz aşıb-daşsa, sevincim,
Tərk eləyər məni könül xoşluğu.
Sənsizliyin bundan sonra, ay incim,
Dolduracaq qəlbimdəki boşluğu.*

## Sevgiylə doludu ürəyim hələ

*Heç kəsin xatrinə dəyə bilmərəm,
Sevgiylə doludu ürəyim hələ.
Başım çox ağrıyıb, deyə bilmərəm,
Namərd ox görməyib kürəyim hələ.*

*Anam deyərdi ki, hamını düşün,
Düşün ağacı da bəhərə kimi.
Evi dağılmışın damını düşün,
Qovrul yatağında səhərə kimi.*

*İlkin, əzəlin bil yeri, torpağı,
Çoxunu xərcləsən, azını saxla.
Əzizlə budaqda yaşıl yarpağı,
Solandan sonra da yasını saxla.*

*Səbr elə, ürəyin səni yoranda,
Ürək aldadandı, başa qulaq as.
İzlə qarışqanı yük aparanda,
Kəsəyə qulaq as, daşa qulaq as.*

*Adam bir-birinə, vallah uyuşmaz,
Fikirlər, duyğular tən olmayanda.
Mənə biri demir, elə şeir yaz,
Dillərdə dolaşsın sən olmayanda.*

## İnsanlar, sizi sevirəm...

*Hardadı salamı dum-duru verən,
Çıxacaq qarşıma hesabla, sayla.
Mənə bu işığı, bu nuru verən,
Deyib verdiyimdən bir az da payla.*

*Hər kəsin bağında açsın gül, çiçək,
Hamının gözünü tox istəyirəm.
Sevgiylə yaranıb qarışqa, böcək,
Kifiri gözəldən çox istəyirəm.*

*Ömrümdə heç kəsi alçaltmayasan,
Ürəkdən sevəsən yadı, yaxını.
Necə sevməyəsən, ucaltmayasan,
Tanrının əhsənlə yaratdığını.*

*Həsədlə baxıram günə, Aya mən,
Adamı ucaldan sözü sevirəm.
Allah, necə qalxım Himalaya mən,
Qışqırım, insanlar, sizi sevirəm.*

## Bacı

Qələminə hörmət bəslədiyim
Ofelya xanım Babayevaya

*Söz ağacı yarpaq-yarpaq,
Əzizləyir kökün torpaq.
Deyirəm ki, qismətə bax,
Gec gəldik üz-üzə bacı.*

*Öz barındı, dər sözündən,
Çiçək kimi tər sözündən.
Nur tökülür hər sözündən,
Gəlməyəsən gözə, bacı.*

*Günlər, aylar il altında,
Sirlər yatır dil altında.
Ocaq sönsə, kül altında,
Gözünü dik közə, bacı.*

*Qələm gərək göz çıxara,
Gecə-gündüz söz çıxara.
Mənlik deyil ipək, xara,
Meyil saldım bezə, bacı.*

*Bir də gəlməz, o səs hanı?
Çarpan ürək, həvəs hanı.
Fərqanəyə əvəz hanı?
Söz mülkümü bəzə, bacı.*

*Qaramı yox, ağımı gör,
Ürəyim dağ, dağımı gör.
Gəl evimi, bağımı gör,
Yolunu sal bizə, bacı.*

## Üstə

*Deyirlər küsəyən olmusan yaman,
Qoyuram günahı yaşımın üstə.
Küsməyim neyləyim, bəzən nahaqdan,
Soyuq su tökürlər aşımın üstə.*

*Bilmirəm ömür-gün haraya kimi,
Mən kimi çağırım, haraya kimi?
Yol gəldim daxmadan saraya kimi,
Biri daş qoymadı daşımın üstə.*

*Tamarzı qalmışam quruca zəngə,
Ümid verəydilər mənə bir çəngə.
Bəndə çəksə məni savaşa, cəngə,
Tanrını görəcək başımın üstə.*

## Ağacım, doğmasan...

*Ürəyim ağrıdı mənim bu gecə,
Çırpmışam üstündən qarını sənin.
Günümü sayıram, qarlı qış keçə,
Necə gözləyirəm barını sənin.*

*Bir azdan quruyar gözünün nəmi,
Gəlir qulağıma səsi baharın.
Hər biri sərçənin dimdiyi kimi,
Gözümü oxşayır tumurcuqların.*

*Yaz gəlir, get yaşıl libasını gey,
Bələnsin sevincə yenə ömür-gün.
Ağacım, doğmasan, budağın ögey,
Mənə əl vermədi görüşmək üçün.*

## Ağlasın

*Heç kəs ağlamasın, köçsəm dünyadan,
Bağımda ağaclar, güllər ağlasın.
Nə çıxar dumanın ağlamağından,
Dərədə çağlayan sellər ağlasın.*

*Köçümlə doğmalar, dostlar barışsın,
Qoy ana torpağa ruhum qarışsın.
Hamının yerinə sükut danışsın,
Məzara qoyanda əllər ağlasın.*

*Ömrü yarıtmadım, kirədə qaldı,
Ovumu ovladım, bərədə qaldı.
Görən hansı arzum dərədə qaldı?
Arxamca boylanıb illər ağlasın.*

*Kimə zülmət, kimə nur oldu dünya,
Gözümə baxmaqdan yoruldu dünya.
Yerimin içində qor oldu dünya,
Bir sönən ocaqda küllər ağlasın.*

*Demə nə bünövrə, nə himi görüb,
Gözlərim daxmanı ev kimi görüb.
Tanrım, sənə olan sevgimi görüb,
Yolsun saçlarını əllər ağlasın.*

## Görən yaşım neçədi?

*Hər kəsin halına yanan olmuşam,
Dərdini çəkmişəm hər günün, ayın.
Nəsimi soyulan gün doğulmuşam,
Vaxtımı yox, yaşımı siz hesablayın.*

*Çətin ki, cavabı tapıla kəsrin,
Ömür həm hesabdı, həm də məsələ.
Qovğalar içindəç keçən bir əsrin,
Əvvəli qan-qada, sonu zəlzələ.*

*Arzudu torpağa səpilən dənim,
Kotanım varıydı, xışım varıydı.
Füzuli dünyadan köçəndə mənim,
Ya bir, ya da iki yaşım varıydı.*

*Dərddi umduğundan əlini üzmək,
Ümidim yoldadır, yığışan deyil.
Torpaq həsrətinə otuz il dözmək,
Bir insan ömrünə sığışan deyil.*

*Başda tac olanı güllər görmədim,
Görəndə sarayın viran içində.
İlahi, şahidsən, nələr görmədim,
Bir ili yaşadım bir an içində.*

*Yetər ki, adama tərs-tərs baxıldı,
Nə vaxt oynayırsan, meydan olanda.
"Şanlı məktub"ların evi yıxıldı,
İnternet, feysbuk peyda olanda.*

*Kim bilər sirrini yoxun, varın da,
Bəlkə kaha olub çörək tabağım.
"Qədim Qobustanın qayalarında",
Adım həkk olunub, qoy gedib baxım.*

## Baharım gəlib...

*Güllərin içində azıb gedirəm,
Könlümü oxşayır nərgiz elə bil.
Bir misra olsa da yazıb gedirəm,
Şeir yazmadığım gün mənim deyil.*

*Yazın hənirindən oyanır torpaq,
Vermişəm qəlbimi duyğularıma.
Təzə təbəssümdü hər yaşıl yarpaq,
Nə yaxşı ilhamım gəlir karıma.*

*Ağacım, görünmür bəhərin, barın,
Yarpağı yarpaqdan gərək ayıram.
Tumurcuq gözüylə gülən baharın,
Budaq əllərini sığallayıram.*

*Uşaqlar əl-ələ oynayır yenə,
Bağıma, bağçama öz varım gəlib.
Qanım damarımda qaynayır yenə,
Təbimi coşduran baharım gəlib.*

## Ümid giləsi

*Açılan bu səhər xoşuma gəlmir,
Xəzri at oynadır, qılınc əlində.
Əydiyi budağın başı dikəlmir,
Göyə nalə qalxır ağac dilindən.*

*Tanrı nəfəs verər istəsə daşa,
Qəfildən yayda da tökər qarını.
Axı necə deyim bulud qardaşa,
Tökmə başımıza yağışlarını.*

*Küsüb adamlardan, yerlə barışmır,
Görən hər günahı uca kişidi.
Üzünü turşudub, dinmir, danışmır,
Göylər elə bil ki, qoca kişidir.*

*Qəlbimə sellənib duyğu axacaq,
Düşsə ürəyimə ümid giləsi.
Külək də əsəcək, qar da yağacaq,
İnsanın göylə yox müqaviləsi.*

## Bağışla, unutdum...

*Axır ki, görüşdük, bu da bir naxış,
Çətin ürək bir də haray qopara.
Niyə tökülmədi başıma yağış?
Mənim həsrətimi yuya, apara.*

*Baxdım gözlərinə, eh, nələr çəkdim,
Gərək gözlərini öyəm, gözəlsən.
Görüşdə sənə bir söz deyəcəkdim,
Bağışla, unutdum deyəm gözəlsən.*

*Səni özü verib mənə pay, Allah,
Gördüm ürəyini, gur işığıydı.
Necə yaraşırdı sənə ay Allah,
Əynində paltarın yaraşığıydı.*

*Ruhum çiçək açdı, bilsən neylədin,
Yerin ürəyimdə, gördüyüm gündən.
Ayrılanda mənə əl də eylədin,
Könlümə od düşdü təbəssümündən.*

*Qurumuş bir çayam, axan deyiləm,
Demirəm qəlbinə yol tapmaq asan.
Mən daha heç kəsə baxan deyiləm,
Sən mənim ömrümün son qadınısan.*